# Dünyaya bir daha göstərdik ki, Şuşa



**Mədəniyyət naziri Anar Kərimov:** *Bir daha dünyaya göstərdik ki, Şuşada olan abidələr xalqımıza məxsusdur və biz onlara sahib çıxıb bərpa edirik*

Biz bir daha dünyaya göstərdik ki, Şuşa Azərbaycan şəhəridir, Azərbaycan mədəniyyətinin paytaxtıdır. Bu şəhərdə olan abidələr xalqımıza məxsusdur və biz o abidələrə sahib çıxıb onları bərpa edirik.

AZƏRTAC xəbər verir ki, bunu Vaqif Poeziya Günləri çərçivəsində jurnalistlərə müsahibəsində mədəniyyət naziri Anar Kərimov söyləyib. Nazir qeyd edib ki, məqbərə Ulu Öndərin təşəbbüsü ilə inşa edilib və 1982-ci il yanvarın 14-də onun iştirakı ilə abidənin açılışı olub. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edilib.

"Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək bu abidənin yenidən bərpa edilməsinə göstəriş verib. Çox şadam ki, bu tarixi günün şahidiyəm. Əminik ki, biz bundan sonra Şuşamızı və Qarabağımızı inkişaf etdirəcəyik", - deyə nazir Anar Kərimov fikrini yekunlaşdırıb.

**Akademik İsa Həbibbəyli:**
*Molla Pənah Vaqifin Şuşada ucaldılan məqbərəsi azərbaycanlıların bu diyarda əbədi yaşayacaqlarının rəmzidir*

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə keçən əsrin 80-ci illərində çoxmillətli tərkibə malik Dağlıq Qarabağda, ölkəmizin qədim mədəniyyət mərkəzi Şuşada Molla Pənah Vaqifin abidəsi bir azərbaycançılıq abidəsi kimi ucaldılmışdı. Molla Pənah Vaqifin ermənilər tərəfindən dağıdılmış məqbərəsi Prezident İlham Əliyevin göstərişi ilə əsaslı şəkildə yenidən qurularaq ucaldılarkən bura bir daha Azərbaycan möhürü vuruldu. Bu gün Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi Qarabağda möhtəşəm bir Azərbaycan möhürüdür.



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Vaqif Poeziya Günləri çərçivəsində jurnalistlərə müsahibəsində bildirib. Akademik deyib: "Molla Pənah Vaqifin poeziyası əbədi olduğu kimi, Şuşa şəhərində ucaldılan bu muzey-məqbərə də azərbaycanlıların bundan sonra bu diyarda əbədi olaraq yaşayacaqlarının rəmzidir. Üzeyir Hacıbəylinin, xan qızı Natəvanın, Bülbülün ermənilər tərəfindən güllələnmiş abidələrinin Prezidentin böyük səyləri ilə Şuşa şəhərində yenidən ucaldılması Azərbaycan xalqının məğlubedilməzliyinin rəmzidir. Bütün bunlar hamısı XXI əsrin əfsanəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın işğaldan azad edilməsi və Molla Pənah Vaqifin abidəsinin ucaldılması əfsanələri həyata keçirməyin mümkünlüyünü isbat etdi".

**Fərhad Bədəlbəyli:**
*Bütün şəhərlər bizim üçün doğmadır, amma Şuşa özlüyündə nadir bir şəhərdir*

Mən xoşbəxtəm, çünki 1982-ci ildə atamla birgə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etmişəm. Həmin açılışda ulu öndər Heydər Əliyevlə birlikdə maestro Niyazi, Qəmər Almaszadə, Süleyman Rüstəm və digər ziyalılarımız da olub.

Bunu Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində AZƏRTAC-a müsahibəsində Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli söyləyib.

Fərhad Bədəlbəyli deyib: "O zaman mən və Polad Bülbüloğlu cavan idik. Biz tarixi hadisənin şahidi olduq. Lakin 1992-ci ildə biz Şuşanı itirdik. Sağalmayan yara öz işini görürdü. Ümidimizi yavaş-yavaş itirirdik. Amma 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə igid əsgərlərimiz bu Qələbəni bizə bəxş etdilər. Bu gün hansı xarici ölkəyə getsək qalib xalqın nümayəndəsi kimi gedəcəyik.



Xoşbəxtəm ki, bu tədbirdə iştirak edirəm. Xoşbəxtəm ki, mayın 13-də "Xarıbülbül" musiqi festivalında iştirak etmişəm. Şuşa hər bir azərbaycanlı üçün unikal bir şəhərdir. Bütün şəhərlər bizim üçün doğmadır, Naxçıvan da, Kəlbəcər də, Tərtər də, Zəngilan da. Amma Şuşa özlüyündə nadirdir və onun öz yeri var. Ziyalılarla birlikdə bu gözəl tədbirdə iştirak etmək mənim üçün böyük şərəfdir".

**Polad Bülbüloğlu:**
*Vaqif Poeziya Günlərinin keçirilməsi həm siyasi, həm də mədəni-tarixi əhəmiyyət daşıyır*

Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Bülbülün ev-muzeyinin bərpa işlərindən sonra açılışında iştirak etdilər. Onların Bülbülün ev-muzeyinə gəlişi məni olduqca şad etdi. Prezidentə minnətdaram ki, bizə bu günləri yaşadır. Allah şəhidlərimizin ruhunu şad etsin, qazilərimizə də cansağlığı versin.



AZƏRTAC xəbər verir ki, bunu Vaqif Poeziya Günləri çərçivəsində jurnalistlərə müsahibəsində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu söyləyib. O deyib: "Mən 7 aydır ki, Şuşaya gedib-gəlirəm, burada görülən bütün işlər göz qabağındadır. Hər dəfə bunlara diqqət yetirəndə, düşünürəm ki, bu, bir möcüzədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı böyük bir Qələbə çalıb və bu Qələbə başımızı ucaldıb. İstər "Xarıbülbül" musiqi festivalı, istərsə də Vaqif Poeziya Günlərinin keçirilməsi həm siyasi, həm də mədəni-tarixi əhəmiyyət daşıyır".

**Xalq rəssamı Fərhad Xəlilov:**
*Şuşa xalçalarını yenidən burada görmək bizə qürur hissi yaşadır*

Şuşa xalçalarını yenidən burada görmək bizdə qürur hissi yaşadır. Şuşa xalçaları doğurdan da möcüzədir. Bu gün biz hədsiz xoşbəxtik. Görürük ki, nə qədər böyük işlər görülüb.



Bunu Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən sərgilərlə bağlı təəssüratını bölüşən Azərbaycan Rəssamlar Birliyinin sədri, Xalq rəssamı Fərhad Xəlilov AZƏRTAC-a müsahibəsində söyləyib.

Xalq rəssamı deyib: "Biz doğrudan da yeni həyat yaşayırıq, Vətən müharibəsində Qələbə və bu gün aparılan bərpa işləri bizi bir millət kimi yeni mərhələyə qaldırır. Bir daha Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bu günü bizə yaşatdıqları üçün təşəkkür edirəm".

Xatırladaq ki, Vaqif Poeziya Günləri çərçivəsində avqustun 30-da Şuşadakı Yaradıcılıq Mərkəzində "Yaddaş. Fotoqrafik tarix", Rəsm Qalereyasında "Qarabağ - Azərbaycan mədəniyyətinin incisidir" və Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" adlı sərgilər açılıb.

# Azərbaycan mədəniyyətinin paytaxtıdır












**Elnarə Akimova:**
*Vaqif Poeziya Günlərinin hər il keçirilməsi şairin yaradıcılığını ədəbiyyatşünaslığımızın gündəmində saxlayacaq*

Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı çox əlamətdar hadisədir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günləri ədəbiyyat tariximizdə mühüm əhəmiyyət kəsb edir. Poeziya günləri çərçivəsində müxtəlif tədbirlər keçirildi. Şeir məclisləri təşkil olundu, musiqi dinlədik, şair və yazıçılarımız çıxışlar etdilər.

Bu barədə AZ?RTAC-a müsahibəsində AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Uşaq ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru Elnarə Akimova söyləyib.

Ədəbiyyat İnstitutunun şöbə müdiri deyib: "Vaqif Poeziya Günləri çərçivəsində keçirilən simpoziumda Molla Pənah Vaqifin yaradıcılığına xüsusi yer ayrıldı. Şairin yaradıcılığının ədəbiyyata təsiri məsələləri müzakirə olundu.

Düşünürəm ki, Vaqif Poeziya Günlərinin ənənəvi olaraq hər il keçirilməsi şairin yaradıcılığını ədəbiyyatşünaslığımızın gündəmində saxlayacaq".

**Günay Əfəndiyeva:**
*Şuşa yenidən öz tarixi günlərini yaşayır*

Bizim hər birimiz, ümumilikdə türk dünyası üçün sevindirici və qürurverici haldır ki, Azərbaycanın ayrılmaz parçası olan Qarabağ, Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa yenidən öz tarixi günlərini yaşayır.

Bu fikri AZƏRTAC-a müsahibəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva deyib.

"İllər sonra burada Azərbaycanın böyük sənətkarlarının, klassiklərimizin, müasir şairlərimizin şeirləri səsləndirilirsə, Azərbaycan muğamının səsi bütün dünyaya yayılırsa, "Qarabağ şikəstəsi" dinlənildikdə artıq ürək yanğısı deyil, fəxarət hissi keçirilirsə, bu o deməkdir ki, Şuşa yenidən öz nəfəsini alır, xoşbəxt günlərinə qayıdır.

Bizə bu Qələbəni bəxş edən, gözəl Qarabağımızı, Azərbaycan mədəniyyətinin incisi Şuşanı bizə qaytaran başda Ali Baş Komandan olmaqla bütün qəhrəmanlarımıza minnətdarıq.

Əminəm ki, yenidən burada bir-birindən gözəl tədbirlər, konsertlər, sərgilər təşkil ediləcək, Qarabağ öz mədəni irsi ilə bir daha dünyanın incilərindən olacaq. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da bu səpkidə bir çox layihələrini Azərbaycanın bu dilbər guşələrində keçirəcək", - deyə G.Əfəndiyeva bildirib.

**Nigar Həsənzadə:**
***Vaqifin məqbərəsi qarşısında şeirimi səsləndirmək şərəfi mənə də nəsib oldu***

Molla Pənah Vaqifin məqbərəsi qarşısında şeirimi səsləndirmək bir şair kimi mənə də nəsib oldu. Bu, böyük şərəfdir, xoşbəxtlikdir.

Bunu AZƏRTAC-a müsahibəsində şair Nigar Həsənzadə söyləyib.




"Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ulu Tanrı igidlərimizi qorusun. Bu xoşbəxtliyi bizə bəxş edən Müzəffər Ali Baş Komandana, Şanlı Ordumuza dərindən təşəkkürümüzü bildiririk. Hamımız bu gün xoşbəxtik", - deyə Nigar Həsənzadə vurğulayıb.

**Xalq şairi Sabir Rüstəmxanlı:**
*Vaqif məqbərəsinin və Poeziya Günlərinin bərpası tarixi hadisədir*

Şuşanın işğaldan azad edilməsi, Azərbaycanın qədim mədəniyyət mərkəzinin ruhunun özünə qayıtması, ədəbiyyat adamlarının bura gəlişi, Vaqif məqbərəsinin və Poeziya Günlərinin bərpası son dərəcədə böyük bir tarixi hadisədir. Bu, bizim tariximizin parlaq səhifəsidir.

AZƏRTAC xəbər verir ki, bunu Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində jurnalistlərə müsahibəsində Xalq şairi Sabir Rüstəmxanlı söyləyib. O deyib: "Əslində, Şuşanın işğaldan azad olunması gücünü əsgərlərimizə bəxş edən Şuşanın ruhu idi, tarixi idi. Şəhid edilmiş vətəndaşlarımızın intiqamını almaq ehtirası idi. O qəhrəmanlığın nəticəsində poeziyamız da öz ənənəsini bərpa etdi, bu ənənə Vaqifin sözü, Şuşanın özü kimi əbədi olacaq".

**Akademik Rafael Hüseynov:**
*Azad Şuşada Vaqifin məqbərəsi qarşısında yenidən dayanmaq qəlbi qürurla doldurur*

Azərbaycanın son Qarabağ savaşında qələbəsindən, şanlı ordumuzun torpaqlarımızı düşmən işğalından azad etməsindən aylar keçsə də, zəfərimizin sevinci də, zəfərli yolumuz da, hər gün əziz Qarabağa yeni qayıdışlarımız da davam edir. Avqustun 29-da Azərbaycanın böyük tərkibdə elm, ədəbiyyat, mədəniyyət xadimlərinin gözəl Şuşaya Vaqif Poeziya Günlərinə bayram etmək üçün gəlişi qələbəmizin və zəfər yolumuzun daha bir davamı, Qarabağa daha bir möhtəşəm qayıdışımız sayılmağa layiqdir.

Bunu Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov AZƏRTAC-a açıqlamasında söyləyib.

"Azad Şuşada, Qarabağın rəmzlərindən olan Cıdır düzündə addımlamaq, böyük Vaqifin yenidən bütün əzəməti ilə yüksələn məqbərəsi qarşısında dayanmaq könüldə iftixar oyadır, qəlbi qürurla doldurur. Azərbaycan insanına bu qüruru, bu iftixarı bağışlamış, Qarabağ zəfərimizin memarı Prezident İlham Əliyev avqustun 30-da Vaqif Poeziya Günlərinin açarkən 1982-ci ili, unudulmaz Heydər Əliyevin iştirakı ilə Molla Pənah məqbərəsinin açılışının edildiyi qarlı-sazaqlı, amma indiki avqust günləri kimi hərarətli çağları xatırlayaraq rəqəmlərin heyrətli cazibəsinə diqqət yönəltdi. Söylədi ki, o vaxt Vaqif türbəsini açarkən ulu öndər Heydər Əliyevin 59 yaşı vardı, indi erməni qəsbkarlarının caynağından xilas edilərək əvvəlki gözəlliyi ilə bərpa edilmiş Vaqif məqbərəsinin yenidən açılışını keçirərkən, azad Şuşada Vaqif poeziya günlərini illər ayrılığından sonra təzədən başlayarkən mənim də 59 yaşım var. Ölkə Prezidentinin bu duyğulu sözləri mənim yadıma xeyli rəmzi olan başqa "59"ları saldı. 1996-cı ilin oktyabrında qədim Naxçıvan torpağında idik. 59 il ömür sürmüş dahi Cavidin ata-baba yurdunda təntənə ilə xatirəsi anılırdı, böyük Heydər Əliyev Cavid məqbərəsini açırdı. Həmin mərasimdə mən də çıxış etdim və söylədim ki, Cavid 1937-ci ilin 4 iyun gecəsində həbs edildi və doğmalarından o ayrılan oldu. İndi üstündən düz 59 il keçirkən Cavid bu məqbərədə ailəsi ilə, əzizləriylə yenidən qovuşur, vəfalı ömür yoldaşı Mişkinaz xanımla, sevimli oğlu Ərtoğrolla təzədən eyni tavan, eyni qübbə altında görüşür. Ulu öndər Heydər Əliyevin ictimai vicdanımız qarşısında ən müstəsna xidmətlərindən olan Cavid qayıdışının, ölməz ustadın millətinə, Vətəninə dönüşünün zirvəsi sayılası bu məqbərə mənim nəzərimdə, sadəcə, bir türbə, yalnız bir memarlıq abidəsi deyil. Daha əvvəl burada, Naxçıvan torpağında ucalan ən uca sərhəd dirəyimizdir. Eyni duyğuları mən gözəl Şuşada, Vaqif məqbərəsinin bərpadan sonrakı açılışında, Vaqif şeir günlərinin başlanğıcında da yaşadım. Bu məqbərə də mənim düşüncəmdə yalnız abidə, türbə deyil, Şuşada, Qarabağ torpağında dikələn ən uca sərhəd dirəyimizdir. Yəqin 1982-ci ildə Vaqif türbəsinin ilk açılışında 59 yaşlı Heydər Əliyev də bu fikirdəymiş, yəqin 2021-ci ilin avqustunda yeni ömür bağışladığı Vaqif məqbərəsi qarşısında vüqarla dayanarkən 59 yaşlı Prezident İlham Əliyev də eyni qənaətdədir. Ən böyük arzu, ümid və inam odur ki, Zəfərimizin ən parlaq rəmzlərindən olan bu məqbərə, bu uca sərhəd dirəyi həmişə ucalsın, daha heç vaxt qara buludlar Qarabağa, Şuşaya, əziz Vətənimizə yaxın düşməsin!", - deyə akademik Rafael Hüseynov bildirib.